# Haqqında əfsanələr dolaşan xüsusi təyinatlılarımız





***Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri Müdafiə Nazirliyinin nəzdində 1999-cu ilin aprelində yaradılmışdır. XTQ-nin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin dəstəyi xüsusi rol oynayıb. 2015-ci il aprelin 29-da xüsusi təyinatlı dəstələrə Döyüş Bayraqlarının təqdimetmə mərasimi keçirilib. 26 iyun 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən paradda Xüsusi Təyinatlı Qüvvələrə Hikmət Mirzəyev rəhbərlik edib. Zəfər paradlarında da onun komandanlığı altında vuruşan ərənlər Azadlıq meydanını şərəfləndiriblər.***

Yaradılmasından cəmi 23 il ötsə də, Azərbaycan Xüsusi Təyinatlıları olduqca şanlı yol keçiblər. 20 iyun 2020-ci ildə yeni xüsusi təyinatlı birlik yaradılıb. Həmin il iyulun sonu və avqustun əvvəllərində Azərbaycan ərazisində bir sıra genişmiqyaslı taktiki birgə Azərbaycan–Türkiyə təlimləri keçirilib. İlk mərhələdə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin bölmələri də iştirak ediblər. İkinci Qarabağ müharibəsində onlar təlimlərdə öyrəndiklərini böyük bacarıqla tətbiq edərək, dönməz qəhrəmanlar olduqlarını bir daha sübuta yetiriblər...

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olub. Ali Baş Komandana Azərbaycan xüsusi təyinatlılarının xatirə bereti təqdim edilib.

İnişil sentyabrın 27-də işğalçı qüvvələrin təxribatına cavab olaraq əks-həmlə əmri ilə başlanmış Vətən müharibəsinin ilkin mərhələsində Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti öncə Cəbrayıl şəhərini və ətrafdakı doqquz kəndi işğaldan azad etmişdir. Noyabrın 8-də Prezident İlham Əliyev Hikmət Mirzəyevi Şuşanın azad olunması münasibətilə təbrik etmişdir. Müharibədəki taktiki qələbələrin bir çoxu Xüsusi Təyinatlı Qüvvələrin Ermənistan ordusunu şəhərin mərkəzindən sıxışdıran cəngavərlərin sayəsində qazanılmışdır. Azərbaycan xüsusi təyinatlıları, ümumilikdə,Türkiyə və Pakistan hərbi akademiyalarında təhsil alırlar. 500 namizəddən 30-u "Maroon beret" sertifikatı qazanır. Kursantlara günlərlə ac və susuz qalsalar da, dözməyi və vəzifələrini icra etməyi öyrədirlər. Odlu silahları və partlayıcıları əhatə edən mükəmməl silahla davranma təlimləri də keçirlər. Bir məsələdə deyildiyi kimi, təlim sınaqlarının çətinliyi döyüş uğurları üçün nərdivan olur.

...2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Zəfər paradı – İkinci Qarabağ müharibəsində (Vətən müharibəsində) Azərbaycanın Qələbəsi şərəfinə keçirilən tarixi hərbi paradda ilk olaraq Müdafiə Nazirliyi XTQ-nin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edirdi. Meydan boyu qürurla addımlayan XTQ hərbçilərini seyrçilərin sürəkli alqışları müşayiət edirdi. Piyada keçidlərindən sonra Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Hər kəs unudulmaz anları iftixarla yaşadı.

Ondan bir gün öncə, dekabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında sərəncam imzalamışdı. Xüsusi Təyinatlı Qüvvələrin komandanı Hikmət Mirzəyev və onun müavini general-mayor Kənan Seyidov, həmçinin XTQ igidlərindən Sübhan Cəbrayılov, Yaşar Hüseynov, Camal İsmayılov, Mehrab Niftəliyev, Elyar Vəliyev, Orxan Cabbarov şərəfli ada layiq görülmüşlər. Orden və medal alan xüsusi təyinatlıların da sayı çoxdur.

General Hikmət Mirzəyev ermənilərin qorxulu röyası hesab edilir. Hələ 2016-cı ilin məlum aprel döyüşlərində onun hünəri haqqında dastanlar söylənib. O, öz igidləri ilə birlikdə Xocalının qisasını ermənilərdən artıqlaması ilə almağı bacarmış generaldır. Dörd günlük Aprel döyüşlərində torpaqlarımızın geri alınması və erməni ordusunun basılmazlığı ilə bağlı mifin dağılması daha çox XTQ-nin adı ilə bağlıdır.

Müharibədə qələbə əldə etmək üçün vacib olan bir neçə məqam var. Bunun formulu canlı qüvvə, vasitə, təminat və motivasiyadır. Bu formul tam olduqda qələbə əldə edilir. Azərbaycan Ordusu qələbə qazandığı döyüşlərdə bu formulu tam şəkildə gerçəkləşdirdi, xüsusi təyinatlılarımız xüsusilə fərqləndilər. Əsas zəhməti, əziyyəti onların öndə gedən dəstələri çəkdilər. Xüsusi təyinatlı qüvvələrimiz düşmənin ön xəttinin yarılmasından başlamış, Cəbrayıl istiqamətində düşmənin mühasirəyə salınıb məhv edilməsi, Füzuli istiqamətində artilleriya divizionunun sıradan çıxarılmasına və yaşayış məntəqələrinin azad edilməsinə qədər misilsiz qəhrəmanlıq göstəriblər. Şuşa döyüşləri isə bizim xüsusi təyinatlılarımızın nə dərəcədə yüksək hazırlıqlı olduğunu göstərdi. Təbii ki, Xüsusi Təyinatlı Qüvvələrimizin şəhidləri də var. Allah rəhmət eləsin. Onların qəhrəmanlıq nümunələri əsl örnəkdir. Döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrlə yanaşı, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı bölmələri də yaxından iştirak edib, qəhrəmanlıq nümunələri göstəriblər. Ağır relyefə malik Şuşa şəhərinin atıcı silahlarla azad edilməsi dünya tarixində görünməmiş döyüş nümunələrindən biridir. Düşmənin orada çox sayda canlı qüvvəsi, hərbi texnikası olub. Görüntülərdən düşmənin tanklardan, artilleriyadan və minaatanlardan istifadə etdiyi bilinirdi. Azərbaycan hərbçiləri isə qayalardan dırmaşaraq Şuşa şəhərini, demək olar ki, əliyalın azad etdilər.

Hərbi ekspertlərin qeyd etdiklərinə görə, düşmənin müdafiəsini göydə dronlar, yerdə əsasən xüsusi təyinatlı qüvvələrimizin döyüşçüləri puça çıxardılar. "Bu döyüşlərlə Azərbaycan xüsusi təyinatlıları regionda ən hazırlıqlı komando qüvvələri olduqlarını bir daha göstərdilər. Onlar yaralı və şəhidlərini döyüş meydanında buraxmadan qayalarla qalxaraq döyüşlərini davam edirdi. Bunun özü yüksək hazırlığın nümunəsidir. Xüsusi təyinatlıların hazırlığında tək fiziki məşqlər əsas rol oynamır. Eyni zamanda, psixoloji hazırlıq da xüsusi əhəmiyyət kəsb edir. Onların görmə və duyma qabiliyyəti adi insanlarda olduğundan daha güclüdür. Onlar günlərlə ac qalmağı bacarırlar. Çöl, meşə şəraitinə, müxtəlif iqlimlərə alışıblar, müxtəlif psixoloji manevrləri dəf edirlər. Xüsusi təyinatlılarımız müasir silah və texniki vasitələrlə təchiz olunub. Zaman-zaman təlimlərdə də bunu müşahidə etmişik. Bir xüsusi təyinatlı hərbi qulluqçu onlarla adi hərbi qulluqçudan daha yüksək döyüş qabiliyyətinə malikdir".

Fəxrimiz, qürurumuz olan xüsusi təyinatlılarımız bundan sonra da Vətənin müdafiəsində ayıq-sayıq dayanmaq əzmindədirlər.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***